# Mədəniyyət Evində silsilə tədbirlər



Bakı Şəhər Mədəniyyət Baş İdarəsi nəzdində fəaliyyət göstərən mədəni-maarif müəssisələri son zamanlar öz intibah dövrünü yaşayır desək heç də yanılmarıq. Şəhərimizdə keçirilən bir çox mədəni-kütləvi tədbirlər bunu bir daha sübut edir. Baş idarənin tabeliyində olan qabaqcıl mədəniyyət müəssisələrindən biri də Hüseynqulu Sarabski adına Mədəniyyət Evidir.

Mədəniyyət Evi 1925-ci ildən bu günə kimi öz fəaliyyətini davam etdirir. Bu illər ərzində bu qocaman mədəniyyət ocağı bir çox mədəni tədbirlərin şahidi olmuşdur. Mədəniyyət Evinin direktoru, ali ixtisas təhsilli rejissor, təcrübəli mütəxəssis Cavid Məlikovla söhbət edərkən bildirdi ki, Mədəniyyət Evinin bədii özfəaliyyət kollektivləri nəinki rayon, eyni zamanda, respublika əhəmiyyətli tədbirlərdə, dövlət bayramlarında da yaxından iştirak edir. Nəsimi Rayon İcra Hakimiyyətinin təşkil etdiyi Novruz bayramı, Qurtuluş Günü, 28 May - Respublika Günü, Silahlı Qüvvələr Günü, Xocalı Soyqırımı Günü və sair tədbirlər də bu qəbildəndir. H.Sarabski adına Mədəniyyət Evi xidməti ərazisində fəaliyyət göstərən ümumtəhsil məktəbləri, uşaq və körpələr evi, internat məktəbləri və qeyri müəssisələrlə yanaşı, Ədliyyə Nazirliyinin penitensiar xidmətinin "N" saylı hərbi hissəsi ilə onların peşə bayramlarını təntənə ilə qeyd etmişlər. Mədəniyyət Evinin nəzdindəki Xalq Teatrı da respublikamızın qabaqcılları sırasındadır. Təsadüfi deyildir ki, bu xalq teatrının bir çox üzvü indi respublikamızda tanınmış peşəkar aktyor kimi fəaliyyətlərini davam etdirirlər. Xalq teatrının repertuarı çox zəngindir. Belə ki, bu teatrın repertuarını M.F.Axundovun "Sərgüzəşti vəziri-xani-Lənkəran", M.S.Ordubadinin "Beş manatlıq gəlin", dahi Üzeyir Hacıbəylinin "O olmasın, bu olsun" tamaşaları və Xocalı soyqırımı, 20 Yanvar hadisələri ilə əlaqədar kütləvi tədbirlərlə zəngindir. Cavid müəllim onu da qeyd etdi ki, Mədəniyyət Evi adını daşıdığı, Xalq artisti, böyük səhnə ustası Hüseynqulu Sarabskinin 140 illiyinə həsr olunmuş Baş İdarənin təşkil etdiyi tədbirdə də yaxından iştirak etmək üçün ciddi hazırlıq işi görür, məşqlər aparır.



Bundan başqa Mədəniyyət Evində fəaliyyət göstərən kurslar, dərnəklər, bədii özfəaliyyət kollektivləri də işlərini günün tələbləri səviyyəsində qurmaq üçün bütün imkanlardan səmərəli istifadə edirlər.

**Zabit CAVADOV,**
**"Respublika".**